

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "KARVAN HƏLƏ YOLDADIR"

## Əjdər Qiyaslıya yeni kitabıyla bağlı oxucu məktubu

**Hərdən öz-özümə fikirləşirəm, özü də tam səmimi mənada özüm-özümə sual verirəm ki, Əjdər müəllimi görəsən neçə ildi tanıyıram? Deyəcəksiniz ki, bu nə çətin riyazi hesablamadır ki. Amma inanın ki, doğurdan çətindi. Çünki bir insan kimi, bir şəxsiyyət kimi, bir qələm adamı kimi Əjdər müəllimi ilk dəfə üzbəüz gördüyüm gün mənə məlumdur. Onu 1980-ci il sentyabr ayının beşi, ya altısı tarixdə o vaxtkı Xalq Təsərrüfatı İnstitutunun qarşısında görmüşəm. Həmin ali məktəbdə təhsil alan bir dostum Əjdər müəllimi mənə göstərib dedi ki, bu kişini tanıyırsan? Düzünü deyim ki, çiynimi çəkdim. Yəni yox! Dedi ki, indi mən onun adını söyləsəm, yəqin ki, tanıyacaqsan. Həqiqətən də Əjdər müəllimin adını söyləyən kimi özümdən asılı olmadan dedim:**

- Bəli, şairi tanıyıram, şeirlərini də oxumuşam...

Yazıma bu girişi təsadüfdən seçməmişəm və dediyim fikrin də üstündə qalıram. Çünki 80-ci ildən başlayan üzbəüz tanışlığın yaşı 38 il olsa da, mən bu tarixlə razılaşmıram. Ona görə ki, həyatım boyu qarşılaşdığım bütün insanların hamısından çox-çox səmimidir Əjdər Qiyaslı!.. Çox-çox diqqətcildir Əjdər Qiyaslı!.. Çox-çox mehribandı və bir də çox-çox kövrəkdi Əjdər Qiyaslı!..

Bunları ona görə vurğulayıram ki, bu dediyim xüsusiyyətləri zamana çevirəndə onda mənim Əjdər müəllimlə tanışlığımın yaşı elə səmimiyyətin, diqqətin, həssaslığın, kövrəkliyin yaşı qədərdi. Və bu dünyada bu yaş qədər yaşı olan tanışlığı, doğmalığı mən təsəvvürümə gətirmirəm. Elə həmin dediklərimin işığında masamın üstündəki kitaba diqqət yetirirəm. Kitabın adı da maraqlıdır:

**- KARVAN HƏLƏ YOLDADIR.**

Bu, Əjdər müəllimin yenidən çap olunmuş, necə deyərlər, mətbəə qoxusu canından çəkilməmiş axarıncı kitabıdı. Və bu kitabda Əjdər müəllimin özünəməxsus aftoqrafı da var. Mən onun bu aftoqrafını bir neçə dəfə oxudum. Ona görə ki, həmin o dediyim duyğular bu aftoqrafın içərisinə elə hopmuşdu ki, o ruhumu oxşayırdı. Və həmin ruhumu oxşayan səmimiyyətin içərisində kitabın üst şeirini oxuyuram.

**Ömrüm boyu sığınmışam Allaha,**
**Yoxdu daha nə kədərim, nə ahım.**
**Dünyada misilsiz ən böyük düha,**
**Mənim Allahımdı, mənim Allahım.**

Allaha müraciətlə başlanan şeir kitabının yəqin ki, hansı söz çəkisində, hansı fikir tutumunda olduğunu artıq təxmin etdiniz. Şəxsən mən bu şeiri oxuyandan sonra öz-özümə həmişə görmək istədiyim Əjdər müəllimin bu an qapıdan içəri daxil olmasını arzu etdim. Onun nurlu çöhrəsindəki səmimiyyətin hardan gəldiyini indi daha dəqiq anlamışdım. Və özüm üçün müəyyənləşdirmişdim ki, Əjdər müəllim Allaha sığınan Allah adamıdır. Ona görə də o, ömrün illərini karvana bənzədir və oxucusuna deyir ki, mənim karvanım hələ yoldadır, sənin görüşünə gəlib və gələcəkdir.

**Günlər gözəl keçəndə,**
**Həyat beçə bal dadır.**
**Azmır dumanda, çəndə,**
**Karvan hələ yoldadır.**

**Qandalanır ürəyi,**
**Çoxdur əhdi, diləyi.**
**Xoş günlərdi gərəyi,**
**Karvan hələ yoldadır.**

**... Qabaqlayır zamanı,**
**Uğurludur hər anı.**
**Əjdər olub sarvanı,**
**Karvan hələ yoldadır.**

Təbii ki, hər bir söz adamı öz söz dünyasının həm bağbanıdı, həm də öz ömür karvanının sarvanı. Amma bunu haqq etmək və bu haqqı da həzin bir pıçıltı kimi oxucuya söyləmək hər adamın imkanı daxilində deyil. Özü kimi sözü də səmimi olan Əjdər Qiyaslı Allaha sığındığı kimi, sözə də pənah gətirmək, bəzən mövzuya sığınmaq, bəzən də mövzunu ürəyində göyərtmək, ürəyinə sıxmaq imkanlarından elə özünəməxsus şəkildə yararlanır ki, onun misralarının yaratdığı mənzərənin ovqatına köklənməmək olmur. Deməli, söz öz xiridarının, onunla dil tapan, onunla anlaşan və onun istədiyi nota kökləyə bilən əldə olanda lələ, qızıla çevrilir. Elə Əjdər Qiyaslı da sözdən bu cür istifadə edir, onu oxucu qarşısına məhz bu cür çıxarır. Hətta üzünü Kürə, Araza tutanda da, Qarabağ dərdlərindən kövrələndə də, Təbriz həsrətini dilə gətirəndə də... sevgi duyğularını pıçıldayanda da... Vətəni tərənnüm edəndə də dostlara, doğmalara ünvanlı fikirlər çələngi yaradanda da... Deməli, bütün bunların mayasında yenə də vurğulayıram: Əjdər Qiyaslının bir şair səmimiyyəti, bir şair özəlliyi dayanır. Əjdər müəllim yazır ki:

**Ömrün, günün qismətidi,**
**Taleyimə düşən yazım.**
**Gözəl dünya nemətidi,**
**Ana Kürüm, xan Arazım.**

**... Arzuları aşıb daşır,**
**Qovuşanda pıçıldaşır.**
**Vətənimə çox yaraşır,**
**Ana Kürüm, xan Arazım.**

Və yaxud:

**Tanrı gözəllikdən yaradıb səni,**
**Məftun eyləmisən əzəldən məni.**
**Hüsnünə heyrandı Günəş də, Ay da,**
**Çılçıraq içində büllur saray da,**
**Təbrizim, Təbrizim, gözəl Təbrizim,**
**Sən doğma anasan, mənim əzizim.**

Əjdər Qiyaslının "Təbrizim" şeiri həm də bir gözəl mahnı mətnidir. Şeiri oxuduqca adamın iç dünyasında həmin mahnının musiqisi də qeyri-ixtiyari səslənir. Deməli, bu, sözün öz yerinə, öz notuna düşməsinə bir işarədir. Mən Əjdər müəllimin kitabını vərəqlədikcə, onun bir şair, bir ziyalı kimi dünyayla çəkişməsinin də, bəzən onun təqdir, bəzən tənqid etməsini də görürəm və bunu da anlayıram. Çünki Əjdər müəllimin şəxsi həyatına da az-çox şəxsi bələdçiliyim var. Onun bu dünyayla haqq-hesab çəkmək hüququnda olduğunu da bilirəm. Və ona görə də:

**Ağlamışam, gülmüşəm,**
**Göz yaşımı silmişəm,**
**Səni həmdəm bilmişəm,**
**Dünya, dünya, ay dünya.**




**...Sirrini bilən yoxdu,**
**Gözün acdı, ya toxdu,**
**Köksümü deşən oxdu,**
**Dünya, dünya, ay dünya.**

Zənnimcə, bu misraların səmimiyyətinə köklənib rahatca xəyala dalmaq olar. Elə o xəyallar içərisində göz önündən bir müdrik şairin ömür yolunu və onun gözəl ürəyini də gətirmək heç də çətin olmaz. Axı şair özü də ürəyinə üz tutub yazır:

**Ömrünü, gününü verməədin bada,**
**Düşdü qismətinə Tanrıdan səda,**
**Bir arzum qalmasın fani dünyada,**
**Ay mənim dözümlü gözəl ürəyim.**

Hə, doğurdan da dözümlüdü Əjdər müəllimin həm özü, həm də ürəyi. Ona görə dözümlüdü ki, o sözün düzünə, sözün halalına, sözün səmimisinə həmişə üz tutur və yazır ki:

**Görmüşəm həyatın hər bir üzünü,**
**Çox sirli göstərir hər şey özünü.**
**Fırtına qoynunda olsa da gəmim,**
**Deyərəm yenə də sözün düzünü.**

Bax elə sözün düzü də onun Vətənə, torpağa, Qarabağa, dərdlərimizə, sevincimizə Azərbaycan əsgərinə ünvanlanan fikirlərdə öz ifadəsini tapır. Həmin o əsgərə ki, ona Azərbaycan xalqı da güvənir. Həmin güvənci şair Əjdər Qiyaslı belə ifadə edir:

**Əsgər odur... sinəsini,**
**İgid kimi gərə bilsin,**
**Bir həmlədə düşmənini,**
**Qırıb yerə sərə bilsin.**

**... Əsgər odur... mətanətlə,**
**Arxalansın öz-özünə,**
**Qələbənin sorağını,**
**Nur eləsin el gözünə.**

Və yaxud:

**Keşiyində vətənin,**
**Sayıq durur, mərd durur.**
**Hədəfini tuşlayıb,**
**Quşu gözündən vurur,**
**Bizim Vətən əsgəri!**

Bütün şeirlərində özünəməxsusluğu qoruyan Əjdər Qiyaslı tarixi günlərə ithaf etdiyi şeirlərində, tarixi şəxsiyyətlərə ünvanladığı misralarında oxucunu inandırmağı bacarır. Xüsusilə hər kəsin tanıdığı, barəsində az-çox bilgilərə malik olduğu türk dünyasının ünlü insanları barəsində də Əjdər Qiyaslı elə hamının qəbul edəcəyi üslubda ithaf şeirləri yazır. Oxucu bu şeirləri oxuyanda şairin tutaq ki, Türkiyənin dövlət rəhbəri Ərdoğana və yaxud bütövlükdə türk dünyasına, Türkiyəyə, eləcə də ölkəmizin tanınan simalarına şairin böyük sevgisinin, inamının şahidi olur. Bu da o deməkdir ki, Əjdər Qiyaslı sözü nəinsə xatirinə deyil, içərisində, ürəyində olan sevginin diqtəsilə yazır. Hətta onun qəhrəmanı dünyasını dəyişmiş olsa belə misralarda o sevgi, o səmimiyyət aydın şəkildə görünür.

Mən bir oxucu olaraq çox böyük sayğı bəslədiyim Əjdər Qiyaslının "Karvan hələ yoldadır" kitabına atüstü, necə deyərlər, isti-isti ifadə etdiyim bu oxucu münasibətimi yekunlaşdırarkən bildirmək istəyirəm ki, bu kitabı əldə edib oxuyan hər kəs öz qarşısında bir səmimi duyğuların çələngini görəcəkdi. Və onun poeziya dünyası ilə başbaşa qalmaqdan zövq alacaqdı. Çünki bu səmimiyyətin, bu duyğusallığın şahidi olmaq hər an mümkün deyil. Axı, başqa cür də ola bilməz. Ona görə ola bilməz ki, misraların müəllifi Əjdər Qiyaslıdı. O, öz oxucularına xitabən deyir ki, XƏTRİMƏ DƏYMƏ:

**Həyatın yolları dumandı, çəndi,**
**Çətin sınaqda da qəddini əymə.**
**Yaxşı da, yaman da ötüb keçəndi,**
**Beş günlük dünyada xətrimə dəymə.**

**... Dəryada qərq olsa ömür yelkəni,**
**Bir daha yenidən tapmazsan məni.**
**Haradan alarsan səni sevəni,**
**Beş günlük dünyada xətrimə dəymə.**

Bax elə mən də bu beş günlük dünyada öz səmimiyyətilə, öz poetik duyğularıyla, öz şəxsiyyətilə özümə doğma bildiyim Əjdər Qiyaslının ömür karvanının hələ də uzun bir yol gedəcəyinə inanaraq demək istəyirəm ki:

**- Əjdər müəllim, siz elə bir insansınız ki, elə bir qələm adamısınız ki, heç kim sizin xətrinizə dəyə bilməz. Bundan əmin olun! Yolunuz uğurlu, kitabınız mübarək olsun!**